# "Bizim tanıdığımız Elmira..."

**Fevralın 11-də Masallı şəhər Heydər Əliyev Mərkəzində Elmira Axundovanın "Bizim tanıdığımız Elmira..." ("Elmira-kakoy mı yeyo znaem") və "Həmkarlarımla üz-üzə" kitablarının oxucularla ictimai müzakirəsi və elmi-praktiki konfrans keçirilib. Təqdimatda iştirak edən rayon ictimayyətinin nümayəndələri, qonaqlar qiymətli əsər kimi dəyərləndirdikləri kitablar haqqında ürək sözlərini söyləyiblər.**

Əvvəlcə tədbir iştirakçıları Milli Məclisin deputatı, " Şöhrət" ordenli, Dövlət Mükafatı laureatı, görkəmli publisist, Xalq yazıçısı, Əməkdar jurnalist Elmira Axundovanın əmək və fəaliyyətinə həsr olunmuş Masallı Regional Mədəniyyət İdarəsinin əməkdaşları Elsevər və Cəmaləddin Əliyev lərin hazırladıqları videoçarxa baxıblar. Videoçarx bu dəyərli şəxsin siyasi fəaliyyətinə, Milli Məclisin deputatı kimi xidmətlərinə, jurnalist, yazıçı, ictimai xadim kimi apardığı işə həsr olunub.

Tədbiri giriş sözü Azərbaycan Yazıçılar Birliyinin üzvü, Masallı Rayon Ağsaqqallar Şurasının sədri, veteran Dövlət qulluqçusu, Vətənə Xidmətə Görə III dərəcəli ordenli Ələşrəf Niftiyev aşmışdır. O, məşhur həmyerlimizin həyat və yaradıcılığından söhbət açıb.

Konfransda çıxış edən Masallı Rayon İcra Hakimiyyətinin başçısı cənab Rafil Hüseynov tədbir iştirakçılarını və qonaqları salamlayaraq deyib: "Yazıçılıq sənəti çox çətin sahədir. Dünyada çox gözəl əsərlər yaranmışdır. Elmira Axundovanın uzun illər yazıb ərsəyə gətirdiyi və ulu öndərin həyat və fəaliyyətini özündə əks etdirən "Heydər Əliyev. Şəxsiyyət və zaman" çoxcildli əsəri də bu səpkidəndir və müəllifi "Bizim Elmiradır". Qeyd etmək istərdim ki, Xalq yazıçısı, Milli Məclisin deputatı, " Şöhrət" ordenli, Dövlət Mükafatı laureatı, həmyerlimiz Elmira Axundova bu tarixi romanı yazmaqdan ötrü çoxlu tanınmış insanlarla görüşmüş, müxtəlif şəhərlərdə olmuş, insanları tapmış, onlarla ünsiyyətdə olmuş və çətinlikləri dəf etməklə belə böyük bir əsər ərsəyə gətirmişdir. Bu silsilə kitablar əsrlər boyu yaşayacaqdır. İnanıram ki, "Bizim tanıdığımız Elmira..." və "Həmkarlarımla üz-üzə" kitabları da qədirbilən oxucular tərəfindən rəqbətlə qarşılanacaq", - deyə rayon rəhbəri cənab R.Hüseynov bildirib: - Çıxışımı Xalq şairi Zəlimxan Yaqubun təbirincə səsləndirəcəyim bu sözlərlə bitirmək istəyirəm: Kişi qeyrətli, oğul ürəkli, igid təpərli, nurlu çöhrəli, gülər üzlü, şux təbiətli, istəkli bacımız, çox hörmətli Elmira xanım Axundovaya möhkəm cansağlığı, ədəbi, ictimai-siyasi fəaliyyətində yeni-yeni uğurlar arzulayır am!



Əsər barədə söz deyən Prezident təqaüdçüsü Şirvan Əbilov müəllifi təbrik edib, ona uğurlar arzulayıb.

Kitablar barədə kinodramaturq, Əməkdar İncəsənət Xadimi, "Şöhrət" ordenli, Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü Natiq Rəsulzadə, həftəlik "Yeni həyat" qəzetinin baş ədəbi işçisi Akif Ağayev , rus dili müəllimi Səkinə Əsədova ürək sözlərini deyiblər.

Jurnalist Akif Ağayev çıxışında qeyd edib ki, " Bizim tanıdığımız Elmira..." , "Həmkarlarımla üz-üzə" kitablarının ərsəyə gəlməsində zəhməti keçən hər kəsə, eləcə də bədii redaktor, Əməkdar jurnalist Elmira Əliyeva ya, gözəl tərtibata görə "CBC" nəşriyyatına , texniki redaktor, həmyerlimiz Cəsarət Qasımova oxucu minnətdarlığını çatdırırıq.

"Bizim tanıdığımız Elmira..." kitabında son 15 ildə mətbuatda Elmira Axundova haqqında maraqlı və əhəmiyyətli materiallar , yaradıcılığı na həsr edilmiş rəylər, resenziyalar, məqalə və esselər cəmlənib. Görkəmli yazarlarımız, şairlərimiz Anar, V . Səmədoğlu , Z.Yaqub, F.Qoca , Ç . Abdullayev , xalq rəssamı Tahir Salahov, yazıçı, kinodramaturq Natiq Rəsulzadə, akademik İ . Həbibbəyli, pr ofessor Eldar İsmayılov, əməkdar jurnalist Elmira Əliyeva , tanınmış jurnalist Qalina Mikeladze , dünya karifeyi Oljas Süleymanov, Rusiyada siyasi bioqrafiya janrının ustadı, məşhur rus tarixçisi Roy Medvedevin, eləcə də ictimai-siyasi dövlət xadimlərinin, yaradıcı həmkarlarının, millət vəkillərinin onun haqqında , əsərləri barədə yüksək, dəyərli fikirlər, məqalələr oxucunu bu kitabı birbaşa oxumağa sövq edir.

Kitablarda kı məqalə və oçerklər, analitik yazılar, xoş ifadəli kiçik qeydlər və təbriklər E.Axundovanın i stedadlı və əməksevər liyindən , risk etməyi bacaran b ir mübariz yazar, ictimai-siyasi xadim olmasını bir daha oxucunun yadına salır...

Boradigah qəsəbəsi 2 nömrəli tam orta məktəbin direktoru, şair-publisist, Azərbaycan Yazıçılar Birliyinin üzvü Nurməmməd Ağayev məşhur jurnalistə həsr etdiyi şeirini söyləyib.

"Regional Hüquqi və İqtisadi Maarifləndirmə" İctimai Birliyinin sədri Arzu Bağırova yazıçı Elmira Axundovanın yenicə çapdan çıxmış "Bizim tanıdığımız Elmira..." və "Həmkarlarımla üz-üzə" kitablarına dəyər verərək bildirib ki, yeni nəşrlərin gənc və yaşlı nəslin maariflənməsində böyük rolu vardır.

Sonra "Bizim tanıdığımız Elmira..." və "Həmkarlarımla üz-üzə" kitablarının müəllifi Elmira Axundova kitabın yaranması və ərsəyə gəlməsi barədə geniş söhbət açaraq təşkil olunmuş tədbirə görə rayon rəhbərliyinə və ziyalılara öz minnətdarlığını bildirib. Müəllif çıxışının sonunda qeyd edib: "Mən ömrümün qalan hissəsini də Heydər Əliyev obrazını yaratmağa çalışacağam..."

Masallıda görülən abadlıq-quruculuq işlərinə münasibət bildirən Milli Məclisin deputatı son illər Masallıda müasir arxitekturanın tələblərinə cavab verən binalar tikildiyini, tədbirin keçirildiyi möhtəşəm Heydər Əliyev Mərkəzini bunun timsalında nümunə göstərib...

Ənənəvi olaraq, hər il region mediaçılarının Milli Mətbuat və Jurnalistika günü ərəfəsində Masallıya toplaşması rayon rəhbəri cənab Rafil Hüseynovun mətbuat nümayəndələrinə diqqət və qayğısının göstəricisidir. Masallı RİH-nin mətbu orqanı olan 87 yaşlı "Yeni həyat" qəzeti h əmişə bu vətənpərvər, intellekt ziyalının - E.Axundovanın yanında olmağa çalışıb, onun mövqeyini dəstəkləyib, yaradıcılığına və ictimai fəaliyyətinə xüsusi diqqət göstərib, yazıçının demək olar ki, bütün iştirak etdiyi tədbirləri, seçicilərlə görüşləri, kitablarının, xüsusilə ən dəyərli tarixi romanının Dövlət mükafatına təqdimat mərasimlərini, seçki öncəsi təbliğat-təşviqat kompanıyalarını işıqlandırıb. Məqalələri rus dilindən tərcümə ilə dərc edilib ("Əliyevin yeni strategiyası: kənd bütün ölkəni yeməklə təmin edir" 14.10.2016, "İnsanlar seçkiyə cəbhəyə yollanırmış kimi gedirdilər" 20.04.2018, bu tərcümələrdə bizimlə birgə, mərhum jurnalist həmkarım ız, şair-publisist R əsul Rzayev in d ə əməyini xüsusi vurğulamaq istərdi k ).

**Tədbirin sonunda görüş iştirakçılarına yeni və əvvəlki illərdə çap olunmuş kitablar hədiyyə olunub.**

**Əlihüseyn ŞÜKÜROV**

Ədalət 2019.- 15 fevral.- S.8.